**Rəşad Kazım oğlu Əhmədov**
**Azərbaycan Respublikası Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi**
**E-mail:re.ehmedov@gmail.com**

# Azərbaycanda aqrar subsidiya və sığorta sisteminin təkmilləşdirilməsi istiqamətləri

**UOT:338.43; JEL:Q10; Q15.**

***Xülasə***

*Dünyanın yeni ərzaq böhranı dövrünə qədəm qoyduğu bir zamanda ölkədə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektoru formalaşdırmaq üçün istehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılması, bu sahədə risklərin qiymətləndirilməsi, habelə bu risklərin azaldılması və ya təsirinin yumşaldılması üzrə mexanizmlərin təkmilləşdirilməsi zərurətə çevrilmişdir. Qeyd edilənlər və digər amillərin təsiri nəzərə alınaraq, müəllif tərəfindən Azərbaycanın aqrar sektorunda əsas maliyyələşmə mexanizmlərinin rolu araşdırılmış və bu mexanizmlərin səmərəliliyinin artırılması məqsədilə üç prioritet istiqamət seçilmişdir. Birinci prioritet aqrar sahədə maliyyələşmə mexanizminin təkmilləşdirilməsi üçün görüləcək tədbirləri özündə əks etdirir. İkinci prioritet ölkədə aqrar sığortanın inkişaf etdirilməsi ilə bağlı tədbirləri əhatə edir. Sonuncu prioritet isə kənd təsərrüfatına yerli və eləcə də xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq üçün nəzərdə tutulan tədbirlərlə əlaqədardır. Məqalənin sonunda Azərbaycanda aqrar sahənin inkişafının maliyyə təminatının təkmilləşdirilməsi istiqamətində müəyyən təklif və tövsiyələr irəli sürülmşüdür.*

***Açar sözlər:*** *subsidiya, aqrar sığorta, aqrar sektorun maliyyə təminatı.*

## Giriş

Son dövrlər dünya ərzaq bazarında müşahidə olunan qeyri sabitlik Azərbaycanda da kənd təsərrüfatı məhsullarının qiymətinə öz təsirini göstərməkdədir. Yaranmış mövcud vəziyyət daxili kənd təsərrüfatı məhsulları bazarının idxaldan asılılığının maksimum azaldılması və kənd təsərrüfatı məhsullarının ixracının artırılması məsələsinə kompleks yanaşma tələb edir. Bu məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təsdiq edilmiş və həmin sənəddə ölkədə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektoru formalaşdırmaq üçün istehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılması, bu sahədə risklərin qiymətləndirilməsi, habelə bu risklərin azaldılması və ya təsirinin yumşaldılması üzrə mexanizmlərin təkmilləşdirilməsi başlıca məsələlərdən biri kimi müəyyən edilmişdir [2,s.82]. Müvafiq "Yol Xəritəsinin" icrasının birinci fazası yekunlaşmış və artıq ikinci fazasına keçilmişdir. Lakin hələ də aqrar sahədə səmərəliliyin artırılması, sahibkarlığın stimullaşdırılması, əlverişli maliyyə resurslarına çıxışın olmaması əsas problem kimi qəbul olunur. Bu baxımdan problemin həlli istiqamətində "Azərbaycanın kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi" movzusu olduqca aktual əhəmiyyət daşıyır və qeyd olunan sahədə səmərəliliyin əldə olunması məqsədilə bu sahəyə maliyyə dəstəyinin verilməsi istiqamətində dovlətin rolunun artırılması elmi araşdırmalar tələb edir.

## Aqrar sahəyə dövlət dəstəyinin əsas istiqamətləri

Aqrar sahədə dövlət-özəl münasibətlərin formalaşması bır sıra özünəməxsus xüsusiyyətlərə malikdir və bu münasibətlərinin formalaşmasında dövlətin tənzimləyici funksiyası ciddi əhəmiyyət kəsb edir. Digər sahələrdə olduğu kimi aqrar sahənin də inkişafı, müvafiq olaraq dövlətin aqrar siyasətindən, bu sahədə həyata keçirilən tənzimləmədən çox asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, milli aqrar iqtisadiyyatın tənzimlənməsində dövlətin prioritet məqsədi aqrar bölmənin inkişafına hərtərəfli yardım etməkdən, kənd təsərrüfatı əmtəə istehsalçılarını daxili və xarici təhlükələrdən etibarlı şəkildə müdafiə etməkdən və yekun olaraq ölkə əhalisini ərzaq məhsulları ilə davamlı təmin etməkdən ibarətdir. İnkişaf etmiş ölkələrdə aqrar istehsala kəndin mövcudluğunun başlıca şərti kimi baxılır və bu məqsədlə də dövlətin tənzimləmə mexanizmləri tətbiq edilir. Bu cür tənzimləmə ilk novbədə aqrar təsərrüfat subyektlərinə hökumətin birbaşa büdcə dəstəyi vasitəsi ilə həyata kecirilir. Bu ölkələrdə dövlət tərəfindən aqrar sahədə kooperasiyanın dinamik və səmərəli inkişafına yönəldilmiş tədbirlər son nəticədə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Azərbaycanda da ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün daxili istehsalı inkişaf etdirmək əsas problem kimi həmişə prioritet olmuşdur. Problemin uğurlu həlli isə dünya təcrübəsində olduğu kimi aqrar təsərrüfat subyektləri arasında səmərəli və dinamik kooperasiya əlaqələrinin qurulmasını tələb edir. Beynəlxalq iqtisadi inteqrasiya proseslərinə fəal şəkildə qoşulan Azərbaycan Respublikasında dövlət tərəfindən son illərdə kooperativ sektorun inkişaf etdirilməsi məsələsinə xüsusi diqqət yetirilir. Təsadüfi deyil ki, son illər aqrar sahənin tənzimlənməsi

istiqamətində dövlət tərəfindən qəbul edilən bütün sənədlərdə kooperasiya münasibətlərinin inkişafı əsas prioritetlərdən hesab edilir. Belə ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 2016-cı il 6 dekabr tarixli Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə kənd təsərrüfatı məhsulları istehsalının davamlılığına təsir edən amillər əsasında yol xəritəsinin əsas prioritetləri müəyyənləşdirilib. Bu prioritetlərin də 2.3.bəndi “Kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafı” adlanır [2]. Dünya təcrübəsi göstərir ki, aqrar sahədə dövlət tənzimlənməsinin ən zəruri prinsiplərindən biri də onun inkişafına dövlət yardımlarının göstərilməsi, bu fəaliyyətin subsidiyalaşdırılmasıdır. Aparılan təhlillər göstərir ki, bu sahəyə dövlət dəstəyi ilbəil artmaqdadır. Aşağıdakı cədvələ diqqət yetirdikdə 2015-2019-cu illərdə kənd təsərrüfatının ayrı-ayrı sahələrinə verilən subsidiya və büdcə vəsaitlərinin məbləğində hər il artımın oğlduğu aşkar görünür. 2015-ci ildə aqrar sahəyə yönəldilən əsas növ subsidiyalar üzrə büdcə ayırması 156.3 mln manat olduğu halda, 2019-cu ildə ayrılan vəsait üzrə artım iki dəfədən çox olmuşdur. 2020 və 2021-ci illər üzrə əkin sahələrinə görə ödənilən subsidiya məbləği barədə məlumat göstərilmişdir.

**Diaqram 1.**




Mənbə: Diaqram Kənd Təsərrüfatı Nazirliyinin məlumatları üzrə hazırlanmışdır.

Qeyd edilən müsbət meyllərə baxmayaraq, demək olar ki, bu sahədə hələ də arzu olunan nəticələrə nail olunmayıb. Belə ki, ölkədə tətbiq olunan subsidiya siyasətinin məhsuldarlığa və ixraca hədəflənməməsi ixracat potensialını məhdudlaşdırır, infrastruktur təkmilləşməsinə, onun mobilləşməsinə mənfi təsir göstərir. Fikrimizcə, dövlətin iqtisadi tənzimləmə mexanizmi riskli sahə sayılan kənd təsərrüfatında daimi xarakter almalı və bu sahəyə əlavə stimul yaratmaq üçün təkmilləşdirilməlidir. İlk növbədə, kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsi üçün istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət yardımının verilməsində əsas meyar – bir hektar əkin sahəsi saxlanılmaqla, yardımların məbləğinin hər bir bitki üçün onun becərilməsində texnikadan istifadə dərəcəsinə mütənasib olaraq diferensasiya olunması daha məqsədəuyğun olardı. Yardımların təklif olunan variantda verilməsi, becərilməsinə daha çox texnika sərf olunan pambıqçılıq, üzümçülük, meyvəçilik və digər sahələrin inkişaf etdirilməsi üçün stimulu artıra bilər. Təcrübə göstərir ki, məhz ünvansız subsidiya strategiyası inkişaf etməkdə olan ölkələrin ixracat potensialını məhdudlaşdırır, infrastruktur təkmilləşməsinə, onun mobilləşməsinə mənfi təsir göstərir. Bu səbəbdən də kütləvi subsidiyalar praktikasına son qoyulması ilə bağlı beynəlxalq təşkilatların çağrışları son zamanlar tez-tez səslənir. Digər tərəfdən, əksər inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatı məhsullarının ixracını stimullasdırmaq məqsədi ilə dövlət bütün təsərrüfat subyektlərinə deyil, ixrac potensialı olan kooperativlərə subsidiyalar ayırır. Misal olaraq Fransa və Yaponiyada kənd təsərrüfatı kooperativi sistemi məhz dövlət subsidiyalarının, dövlətin əhəmiyyətli köməyinin nəticəsində formalaşmışdır. Azərbaycanda da aqrar sahədə kütləvi subsidiyalaşma siyasəti tədricən ünvanlı xarakrer almalı, aqrar kooperativlərin fəaliyyətini stimullaşdıran dövlət subsidiya proqramları həyata keçirilməlidir. Yəni, aqrar kooperativlər üçün təminat və dəstək fondları yaradılması, kooperativlərin start kapitalı ilə təmin edilməsi, aqrar istehsal kooperativlərinə verilən kreditlər üzrə faiz dərəcələrinin subsidiyalasdırılması, həmçinin kənd təsərrüfatı məhsulları ixracının subsidiyalaşdırılması məqsədə uyğun olardı.

Aqrar sektorda fəaliyyət göstərən istehsalçılar üçün son məhsulun həcminə və keyfiyyətinə görə subsidiya modelinin tətbiq olunması bu sahədə mövcud olan problemlərin həllinə kömək etmiş olar. Hazırda kənd təsərrüfatında sahəyə görə subsidiya modeli tətbiq olunur ki, bu da əksər hallarda sui istifadəyə və ekstensiv inkişafa səbəb olur. Lakin, dünya təcrübəsi göstərir ki, aqrar istehsalçı subyektlərə - fermerlərə subsidiyalar son məhsulun həcminə və keyfiyyətinə görə verilir ki, bu da ciddi stimul yaradaraq, həm məhsuldarlığın yüksəlməsinə, həm də keyfiyyətin yüksəlməsinə xidmət edir. Müvafiq təcrübənin ölkəmizdə də tətbiqi kənd təsərrüfatının intensiv inkişafını stimullaşdırmaqla bərabər innovasiyanın tətbiqini genişləndirə və ixracın həcmini artıra bilər.

**Aqrar sığorta sisteminin təkmilləşdirilməsi**

Müşahidələr göstərir ki, kənd təsərrüfatının dövlət tərəfindən tənzimlənməsinin və onun səmərəli dəstəklənməsinin zəruriliyi, həm də bu sahənin təbiət hadisələrindən daha çox asılı olması və bu səbəbdən də aqrar istehsalın stabil olmaması ilə bağlıdır. Bu vəziyyət isə məhsul istehsalının həcminin zaman və məkan baxımından bazarın tələblərinə uyğunlaşdırılması imkanlarını məhdudlaşdırır. Aqrar sahənin təbiət hadisələrindən əhəmiyyətli dərəcədə asılı olması, onun maliyyə vəziyyətinin də qeyri-sabitliyinə səbəb olur. Nəticədə isə iqtisadiyyatın digər sahələri ilə müqaisədə, aqrar sahədə istehsalın risk göstəricisi nisbətən yüksək olur ki, bu da həmin sahənin investisiya cəlbediciliyinə mənfi təsir göstərir. Buna görə də risklərin səmərəli idarə olunlası, həmçinin aqrar istehsalçılarının əmlakının təbii hadisələrdən sığortalanması məqsədi ilə 2019-ci ildə “Kənd təsərrüfatında sğortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Müvafiq qanunun icrası məqsədilə hökumət tərəfindən 30 oktyabr 2020-ci il tarixli Qərarı ilə “Aqrar sığorta qaydaları” qəbul edilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2019-cu il tarixli “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə” Fərmanına əsasən ölkədə Aqrar Sığorta Fondu təsis edilmişdir. Artıq bir neçə ildir ki, dövlət Aqrar Sığorta Fondu vasitəsilə sığortalanan hər bir fermerin aqrar sığorta haqlarına 50% yardım edir. Yəni fermerin ödəməli olduğu sığorta haqqının yarısını dövlət ödəyir. Məsələn, sığorta haqqı 100 manatdırsa, onun 50 manatını dövlət ödəyir, qalan 50 manatını isə fermer hissə-hissə sığorta ili ərzində ödəməli olur [3]. Bu gün ölkəmizdə aqrar istehsalçıların maliyyə resurslarına çıxışın məhdudluğu bu sahədə aktiv sığorta mexanizminin, dövlət dəstəkli aqrar sığorta mexanizminin olmasını obyektiv reallığa çevirmişdir. Ölkənin aqrar sığorta sisteminin əsas prinsiplərindən biri də məhz dövlət dəstəkli aqrar sığorta mexanizminin qurulmasıdır. Ümumilkidə isə Azərbaycanın aqrar sığorta sisteminin əsas prioritetlərini belə sıralamaq olar: aqrar sığorta bazarı infrastrukturunun formalaşdırılmasına və inkişafına kömək göstərmək; aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını təmin etmək; kənd təsərrüfatı məhsullarının risklərə qarşı müdafiəsini təmin etmək; kənd təsərrüfatı məhsullarının istehsalının davamlılığını təmin etmək; kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxış imkanlarına dəstək olmaq.

Aydındır ki, aqrar sahədə sığorta işində əsas və mühüm məqsəd kənd təsərrüfatı məhsullarının sığortalanmasıdır. Məhsulun sığortalanması bazarda sığortanın daha perspektiv istiqamətlərindən hesab edilir. Eyni zamanda, o birbaşa bazarın vəziyyətini əks etdirir və məhsulun sığortalanmasında birinci əsas məqsəd məhsulu məhv edə biləcək məsələn, quraqlıq, dolu, tufan, daşqın baş verməsi ilə əlaqədar hər hansı bir vəziyyət yaranarsa fermerə məhsul zəmanəti verməkdir. Hazırda ən mühüm məsələlərdən biri də hansı konkret fərdi təhlükələrin məhsulun sığortası predmeti olduğu sualına aydınlıq gətirməkdir. Burada məhsulun itirilməsi və ya hissə-hissə kompensasiyası ilə bağlı zərərlərin tam kompensasiya olunması nəzərdə tutulurmu. Fermerlər üçün məhsul itkisi zamanı zərərin tam və ya hissə-hissə kompensasiya olması tədbirləri ilə yanaşı, məhsulun sığortalanmasında məqsəd, həm də fermerin kredit qabiliyyətliliyi nöqteyi-nəzərincə vəziyyətini yaxşılaşdırmaqdır. İstənilən xarakterdə olan kreditorlar banklar və ya xüsusi kredit mənbələri o fermerə üstünlük verirlər ki, onun fəaliyyəti riskli deyil, hər hansı təbii fəlakət və buna müvafiq olaraq məhsulun itirilməsi ehtimalı olan zaman onlarda öz gəlirlərini müəyyən minimum həddə saxlamaq zəmanəti vardır. Bu və ya digər firma və ya fermerin gəlirlərinin hesablanmasında səhv etməmək məhsulun sığortasının mühüm şərtlərindəndir. Bu, fermer üçün müasir texniki və texnoloji nailiyyətlərin səviyyəsində olmaq və öz fəaliyyətində qabaqcıl texnikadan və məhsulun etibarlı müdafiəsi vasitələrindən istifadədə stimuldur. Beləliklə demək olar ki, məhsulun sığortası həm də bütövlükdə iqtisadiyyatda müsbət effektivə malikdir ki, burada sosial komponent də az əhəmiyyət kəsb etmir. Sosial komponent fermerdə məhsulun bir və ya tam hissəsini itirərkən kompensasiya almaq zəmanəti olarsa, o, böyük inamla öz fəaliyyətini davam

etdirəcək. Sosial aspektin digər tərəfi kənd əhalisinin şəhərə miqrasiyasının aşağı salınması perspkektivlərinin olmasıdır. Bundan başqa bu iş yerlərinin saxlanması, ərzaq təhlükəsizliyi faktoru və s. Bütövlükdə cəmiyyətin sosial strukturu kimi çıxış edir. Hazırda Azərbaycanda aqrar məhsul istehsalçılarının sığorta xidmətlərindən istifadə səviyyəsi qənaətbəxş deyildir. Belə ki, Mərkəzi Bankın məlumatına görə, 2020-ci ildə ölkə üzrə əmlak sığortasına görə ödənilmiş cəmi haqlarda kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortasının payı 2%-ə bərabər olmuşdur. Kənd təsərrüfatı sahəsində ixtisaslaşmış sığorta növünə diqqət yetirilməsi lazım gəlir. Məsələn, kənd təsərrüfatı heyvanlarının sığortası müqavilələri əsasında 2016-2020-ci illərdə davamlı şəkildə sığorta ödənişləri aparılmışdır. Bu rəqəm 2016-cı ildə 757,6 min manat, 2017-ci ildə 95 min manat, 2018-ci ildə 574,7 min manat, 2019-cu ildə 936,7 və 2020-ci ildə 613 min manat təşkil etmişdir. Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası müqavilələri üzrə isə son iki ildə demək olar ki, sığorta müqavilələri bağlanılmayıb.

Qeyd edilənlər bir daha göstərir ki, ölkədə aqrar istehsalçıların sığortalanmasına dövlət dəstəyinin həyata keçirilməsinə baxmayaraq, bu dəstək tədbirindən praktiki olaraq istifadə edilmir. Bunun əsas səbəbi isə aqrar sahənin kifayət qədər riskli sahə olması və sığorta şirkətlərinin kənd sərərrüfatı sahəsində sığortalama prosedurlarını həyata keçirəcək peşəkar kadırlarının olmamasıdır. Eyni zamanda, kənd təsərrüfatı sahəsində dünya təcrübəsində geniş tətbiq olunan müvafiq sığorta fondunun yoxluğu da bu sahənin inkişafına kifayət qədər mənfi təsir göstərir. Bütövlükdə ölkənin kənd təsərrüfatında sığorta sahəsinin inkişaf etdirilməsi, o cümlədən bu sahə üzrə dövlət dəstəyi alətlərinin təkmilləşdirilməsi üçün geniş islahatların aparılmasının zəruriliyini göstərir. Hesab edilir ki, bu sahədə səmərəliliyin əldə edilməsinə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan tədbirlərin reallaşdırılması öz töhfəsinin verəcəkdir. Belə ki, müvafiq sənəddə aqrar sahədə sığorta sistemi ilə bağlı beynəlxalq təcrübəyə əsaslanmaqla mövcud qanunvericiliyin təkmilləşdirməsi, aqrar sığorta ilə bağlı təbliğat və maarifləndirmə işləri, istehsalçıların sığorta sahəsində savadlılığının artırılmasında özəl sığorta qurumlarının rolunu artırmaq üçün tədbirlərin görülməsi nəzərdə tutulmuşdur [2]. Ölkəmizdə 35 sığorta şirkəti fəaliyyət göstərir. Bu şirkətlərin 17-si həyat, 18-i isə qeyri-həyat sığortası üzrə ixtisaslaşıb. Buna baxmayaraq ölkəmizdə aqrar sığorta bazarının inkişafı tələbatdan geri qalır [5]. Bunun əsas səbəbi aqrar istehsalçıların məlumatsızlığı, sığorta şirkətlərinə etbarının olmaması, sahənin risk səviyyəsi yüksək olduğu üçün sığorta şirkətlərinin bu sahəyə marağının olmaması və s. hesab olunur. Digər tərəfdən, Azərbaycan Respublikasının Vergi Qanunvericiliyində sığorta xidmətlərinin və həmçinin aqrar xidmətlər göstərən təsərrüfat subyektlərinin göstərdiyi xidmətlərin əlavə dəyər vergisindən azad edilməsi də bu sahədə inkişafın təmin edilməsinə demək olar ki, ciddi təsir etməyib [1]. Fikrimizcə, bu sahədə müsbət nəticələrin əldə olunması üçün aqrar sığorta sisteminin təkmilləşdirilməsi məqsədilə qəbul edilmiş sənədlərdə qeyd edilən tədbirlər formal olaraq sənəd üzərində qalmamalı, bu istiqamətdə hökumət tərəfindən təxirə salınmadan ciddi addımlar atılmalıdır. Aqrar sahə təbii-iqlim şəraitindən aslı olduğu üçün bu sahədə risklərin idarə olunması və sahənin kreditləşməsinin stimullaşdırılması məqsədilə ixtisaslaşmış qurum olan sığorta kooperativlərinin fəaliyyətinin təşkilinin dövlət tərəfindən stimullaşdırılması, aqrar sığortanın icbari növünə keçid, dövlət tərəfindən ödənilən sığorta haqqının 50%-dən 70%-ə qaldırılması, bu istiqamətdə müvafiq qabaqcıl təcrübənin öyrənilməsi və normativ aktların təkmilləşdirilməsi təklif olunur. Həmçinin aqrar sığortanın əsas mahiyyəti və məzmununu istehsalçı təsərrüfat subyektlərinə dərindən aşılamaq məqsədilə sığorta qurumları ilə birlikdə maarifləndirmə, təbliğat və izahat tədbirlərinin həyata keçirilməsi bu sahədə görülən işlərə öz töhfəsini verə bilər.

**Nəticə**

Aqrar sahədə sahədə mövcud durumun və inkişaf dinamikasının təhlil olunması, bu sahənin inkişafında maliyyə-kredit mexanizmlərinin rolunun artırılması və ümumilikdə aqrar sahəyə dövlət dəstəyinin təkmilləşdirilməsi istiqamətlərində aparılan tədqiqatlar bu dəstəyin Azərbaycanın kənd təsərrüfatı üçün əhəmiyyətini bir daha sübut edir. Belə ki, aqrar sektorun istehsal və digər subyektlərinə dövlət dəstəyinin artırılması ölkənin ərzaq təhlükəsizliyi, məşğulluq, qeyri-neft ixracı kimi istiqamətlərdə mövcud problemlərinin həllində ciddi rol oynayır. Aqrar sahənin inkişafının mövcud vəziyyətinin təhlili göstərir ki, həyata keçirilən uğurlu islahatlar səmərəli aqrar bazarın formalaşmasına, ölkə əhalisinin kənd təsərrüfatı və ərzaq məhsulları ilə təminatında daxili istehsalın rolunun yüksəldilməsinə, emal sənayesinin inkişafına, kənd yerlərinin sosial-iqtisadi simasının dəyişdirilməsinə və kənd əhalisinin məşğulluğuna təkan vermişdir. Hazırkı dövrdə aqrar sektorda maliyyələşmə mexanizmlərinin, o cümlədən aqrar subsidiya və sığorta

sisteminin daha da təkmilləşdirilməsi məsələləri başlıca prioritetlərdən hesab olunur. Göstərilən prioritetin reallaşdırılması istiqamətində son illərdə qanunvericiliyə edilmiş dəyişikliklər bu sahədə səmərəliliyin yüksəldilməsinə müsbət təsir göstərmiş və növbəti illərdə də göstərəcəkdir. Fikrimizcə, dövlət qeyd olunan fikirləri nəzərə almaqla ölkədə kənd təsərrüfatının inkişafının dayanıqlığını təmin etmək üçün, iqtisadi mexanizmlərdən səmərəli istifadə etməklə lazım olan normal şəraiti yaratmalı, bu mexanizmlərdən biri və əsası olan dövlətin maliyyə dəstəyinin köməyi ilə həmin prosesi tənzimləməlidir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi,2021.
2. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. "Aqrar sığorta haqqında" Qanunun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 19 avqust 2019-cu il3
4. "Aqrar sığorta qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 oktyabr tarixli 431 nömrəli Qərarı ilə təsdiq edilmişdir.
5. Azərbaycanın statistik göstəriciləri. 2020, Statistik məcmuə, s. 772.
6. Əhmədov.R.K "Aqrar sektorun maliyyə təminatinin yüksəldilməsində vergi güzəştlərinin rolu". Azərbaycanın Vergi Jurnalı, 2015, №5, s.89-102.

***Рашад Казим оглы Ахмедов***

***Направления совершенствования системы сельскохозяйственного субсидирования и страхования в Азербайджане***

***Резюме***

*В условиях, когда мир вступает в новый продовольственный кризис, необходимо улучшить обеспечение производителей финансовыми ресурсами, оценку рисков, а также механизмы снижения или смягчения влияния этих рисков в целях формирования конкурентоспособного аграрного сектора в стране. Принимая во внимание влияние вышеуказанных и других факторов, автор изучил роль основных механизмов финансирования в аграрном секторе Азербайджана и выделил три приоритетных направления с целью повышения эффективности этих механизмов. Первый приоритет включает в себя меры по совершенствованию механизма финансирования в агропромышленном комплексе. Второй приоритет охватывает меры, связанные с развитием сельскохозяйственного страхования в стране. Последний приоритет связан с мерами по стимулированию местных, а также иностранных инвестиций в сельское хозяйство. В конце статьи были даны некоторые предложения и рекомендации по улучшению финансового обеспечения развития сельскохозяйственного сектора в Азербайджане.*

***Ключевые слова**: субсидии, агрострахование, финансовое обеспечение аграрного сектора.*

***Rashad Kazim oglu Ahmadov***

***Directions to improve the agricultural subsidy and insurance system in Azerbaijan***

***Abstract***

*While the world is entering new food crisis, it is necessary to improve the support to producers with financial resources, risk assessment, as well as mechanisms to reduce or mitigate the impact of these risks in order to form a competitive agricultural sector in the country. Taking into account the impacts indicated above and of other factors, the author studied the role of the main financing mechanisms in the agricultural sector of Azerbaijan and selected three priority areas in order to increase the effectiveness of these mechanisms. The first priority includes measures to be taken to improve the financing mechanism in the agricultural sector. The second priority covers measures related to the development of agricultural insurance in the country. The last priority is related to measures to stimulate local as well as foreign investment in agriculture. At the end of the article, certain proposals and recommendations were made to improve the financial support for the development of the agricultural sector in Azerbaijan.*

***Key words**: subsidies, agricultural insurance, financial support on agricultural sector.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 14.07.2022.***
***Çapa qəbul olunub: 20.07.2022.***